# BİZ QƏRBİ AZƏRBAYCAN QAYIDACAĞIQ



## Mətin KƏRİMLİ:

# "“Qərbi Azərbaycana qayıdış” olimpiadası Qərbi Azərbaycan İcması ilə birgə əməkdaşlığımızın uğurlu nəticələrindən biridir"

**Mətin KƏRİMLİ: “Qərbi Azərbaycan ümummilli bir məsələdir. Bununla bağlı bir sıra mühüm addımlar atılmaqdadır. Elm və Təhsil Nazirliyi olaraq bizim əsas hədəflərimizdən biri Azərbaycanın tarixi keçmişi, əzəli torpaqları ilə bağlı yeniyetmə və gənclərimizin maarifləndirilməsi, biliklərinin genişləndirilməsidir. Bu müstəvidə Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcması arasındakı uğurlu əməkdaşlıq bizi sevindirir”.**

**Əziz ƏLƏKBƏRLİ: “Son 200 ildə ata-baba torpaqlarından zorla qoparılan soydaşlarımız, onların yaşadıqları ağrı-acı ilə bağlı gənclərin məlumatlı olması, Qərbi Azərbaycana geniş maraq göstərmələri onların milli ruhunun yüksək səviyyədə olmasının və vətənə bağlılığının göstəricilərindən biridir. Düşünürəm ki, Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin gənc nəslə ötürülməsində “Qərbi Azərbaycana qayıdış” olimpiadası xüsusi əhəmiyyət daşıyır”.**

**Məlahət İBRAHİMQIZI: “Mən əminəm ki, siz xarici dil bilirsiniz və əldə etdiyiniz tarixi bilik, məlumatlarınızla sosial şəbəkələrdə ermənilərin saxta fikirlərinə qarşı davamlı olaraq mübarizə aparacaqsınız. Bir daha dünya ictimaiyyətinə Qərbi Azərbaycanın bizə məxsus olduğunu göstərməliyik”.**

**Həmin gün Qərbi Azərbaycan İcmasının inzibatı binasında bir qələbəlik yaşanırdı. Azərbaycanın demək olar ki, bütün bölgələrindən say-seçmə şagirdlər bura toplaşmışdılar. Onlar “Qərbi Azərbaycana qayıdış” olimpiadasının qalibləri idi.**

Sonuncu mərhələsi Naxçıvanda baş tutan bilik yarışı məktəblilərimiz tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Onu da qeyd edək ki, 21-22 iyun tarixlərində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresi çərçivəsində olimpiadanın qalibləri müəyyənləşdirilərək mükafatlandırılmışdılar. Bu dəfə isə qalib yeniyetmələrimiz Qərbi Azərbaycan İcmasının qonağı idilər.





### “Gənclərimizin Qərbi Azərbaycana maraq göstərmələri onların milli ruhunun yüksək səviyyədə olmasının göstəricisidir”

Olimpiadanın qalibləri ilə keçirilən görüşdə Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış edərək məktəbliləri burada görməkdən məmnunluq hissi keçirdiyini bildirdi. Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərdən söz açan sədr hər bir Azərbaycan gəncinin bununla bağlı məlumatlı olmasının zəruriliyindən danışdı: “Son 200 ildə ata-baba torpaqlarından zorla qoparılan soydaşlarımız, onların yaşadıqları ağrı-acı ilə bağlı gənclərin məlumatlı olması, Qərbi Azərbaycana geniş maraq göstərmələri onların milli ruhunun yüksək səviyyədə olmasının və vətənə bağlılığının göstəricilərindən biridir. Düşünürəm ki, Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin gənc nəslə ötürülməsində “Qərbi Azərbaycana qayıdış” olimpiadası xüsusi əhəmiyyət daşıyır”.

Ə.Ələkbərlinin sözlərinə görə, 10 minə yaxın IX və X sinif şagirdinin qatıldığı olimpiada güclü rəqabətin aparıldığı əsl bilik yarışı idi. Olimpiadanın final mərhələsinin Naxçıvan Muxtar Respublikasında keçirilməsini yüksək dəyərləndirən sədr gənclərimizin Qərbi Azərbaycanla bağlı biliklərinin yüksək səviyyədə olduğunu xüsusi qeyd etdi. O, çıxışının sonunda Elm və Təhsil Nazirliyi ilə birgə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə, olimpiadanın hər il davamlı keçiriləcəyinə ümidvar olduğunu söylədi.

### “Qərbi Azərbaycana qayıdış” mövzusunda təşviqat, təbliğat və maarifləndirmə tədbirləri davamlı olaraq həyata keçiriləcək

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən olunmuş strateji hədəfə istiqamətlənmiş belə bir mühüm tədbirin aktuallığından söz açdı. Qeyd olundu ki, bizim ölkə, xalq olaraq artıq özümüz üçün müəyyən etdiyimiz strateji hədəflərdən biri də məhz Qərbi Azərbaycana qayıdış məsələsidir: “Qərbi Azərbaycan ümummilli bir məsələdir. Bununla bağlı bir sıra mühüm addımlar atılmaqdadır. Elm və Təhsil Nazirliyi olaraq bizim əsas hədəflərimizdən biri Azərbaycanın tarixi keçmişi, əzəli torpaqları ilə bağlı yeniyetmə və gənclərimizin maarifləndirilməsi, biliklərinin genişləndirilməsidir. Bu müstəvidə Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcması arasındakı uğurlu əməkdaşlıq bizi sevindirir.

Bilirsiniz ki, bu təşəbbüsü ötən il Naxçıvanda keçirilmiş “Qərbi Azərbaycana qayıdış” festivalında elm və təhsil naziri Emin Əmrullayev irəli sürmüşdü və Qərbi Azərbaycan İcmasının üzvləri, eyni zamanda digər iştirakçılar tərəfindən müsbət qarşılanmışdı”.

Ötən müddət ərzində Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcmasının birgə fəaliyyətindən danışan Aparat rəhbəri olimpiadanın da bu istiqamətdə atılan addımlardan biri olduğunu dedi: “Qərbi Azərbaycana qayıdış” olimpiadası Qərbi Azərbaycan İcması ilə birgə əməkdaşlığımızın uğurlu nəticələrindən biridir”.

Olimpiadaya böyük marağın olduğunu söyləyən Mətin Kərimli gənclərimizin tarixi yaddaşımızın, mirasımızın, mədəniyyətimizin daşıyıcıları olduqlarını qürur hissi ilə qeyd etdi.

Aparat rəhbəri bu il Naxçıvan Muxtar Respublikasında keçirilən növbəti “Qərbi Azərbaycana qayıdış” festival-konqresində elm və təhsil naziri Emin Əmrullayevin, eləcə də digər çıxış edən iştirakçıların təkliflərinin xüsusi diqqətdə saxlanıldığını, “Qərbi Azərbaycana qayıdış” tədbirlərinin davamlı olaraq həyata keçiriləcəyini bildirdi: “Biz bu olimpiadanı davam etdirəcəyik. “Qərbi Azərbaycana qayıdış” mövzusunda təşviqat, təbliğat və maarifləndirmə tədbirlərini həyata keçirəcəyik. Eləcə də gənc alimlərimizin “Qərbi Azərbaycana qayıdış” mövzusu ilə bağlı tədqiqatlar aparmalarına diqqət yetirməyi düşünürük, eyni zamanda ali təhsil müəssisələrində də silsilə tədbirlərin təşkili nəzərdə tutulur. Və Qərbi Azərbaycan İcması bütün bu proseslərdə, reallaşdıracağımız işlərdə bizim əsas tərəfdaşımızdır. Birgə görəcəyimiz işlərdə Qərbi Azərbaycan İcmasının bütün əməkdaşlarına verəcəkləri dəstəyə görə əvvəlcədən təşəkkür edirəm”.

Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcmasının birgə əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirən Aparat rəhbəri olimpiada qaliblərinə və tədbirin təşkilində əməyi olan hər bir kəsə təşəkkür edərək onlara ən xoş arzularını çatdırdı.

### Böyüməkdə olan gənc nəsil üçün mənəvi dəyəri olan olimpiada...

Çıxış üçün söz alan Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı gənclərin ümummilli məsələmiz olan Qərbi Azərbaycanla bağlı geniş marağını təqdir edərək onları Qərbi Azərbaycanın elçiləri adlandırdı: “Mən əminəm ki, siz xarici dil bilirsiniz və əldə etdiyiniz tarixi bilik, məlumatlarınızla sosial şəbəkələrdə ermənilərin saxta fikirlərinə qarşı davamlı olaraq mübarizə aparacaqsınız. Bir daha dünya ictimaiyyətinə Qərbi Azərbaycanın bizə məxsus olduğunu göstərməliyik”.

Digər çıxış edənlərdən Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, AMEA Tarix və Etnologiya İnstitutunun “Qərbi Azərbaycan tarixi” şöbəsinin müdiri Cəbi Bəhramov olimpiadanın özəlliyindən söz açaraq gənclərimizin öz tarixi keçmişinə olan maraqlarını, bununla bağlı biliklərini yüksək qiymətləndirdilər. Qeyd olundu ki, Elm və Təhsil Nazirliyi tərəfindən müxtəlif fənlər üzrə olimpiadalar keçirilir. Ancaq “Qərbi Azərbaycana qayıdış” olimpiadasının, sözün əsl mənasında, bir mənəvi dəyəri var. Bizim şagirdlərimiz fizika, riyaziyyat, kimya və digər fənlər üzrə yüksək bilik nümayiş etdirməklə yanaşı, öz xalqına, millətinə, dövlətçiliyə, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin yürütdüyü siyasətə sadiq bir nəsil olaraq yetişirlər.

### Bu dəfə qaliblər Qərbi Azərbaycan İcması adından mükafatlandırıldılar

Tədbirdə qalib şagirdlər çıxış üçün söz alaraq belə bir olimpiadada iştirak etmələrindən qürur duyduqlarını, xüsusilə final mərhələsinin Naxçıvanda keçirilməsinin onların həyatında ən unudulmaz bir hadisə kimi yadda qaldığını bildirdilər.

Sonda şagirdlərə Qərbi Azərbaycan İcması adından hədiyyə və mükafatlar təqdim olundu.

Görüşdən sonra olimpiada qalibləri Heydər Əliyev Mərkəzini ziyarət etdilər.

### Qeyd edək ki...

“Qərbi Azərbaycana qayıdış” olimpiadasının təşkilində məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etmək idi.

Ölkənin ümumi təhsil müəssisələrinin IX və X sinif şagirdlərinin iştirak etdiyi, iyun ayında final mərhələsi Naxçıvan Muxtar Respublikasında keçirilən bilik yarışında 36 nəfərdən 19-u qalib olub. Onlardan 3 nəfər I, 6 nəfər II, 10 nəfər isə III yerə layiq görülüb. Olimpiada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə tərəfdaşlığı ilə həyata keçirilib.

**Samirə KƏRİMOVA**